*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 208-214*

https://doi.org/10.62837/2025.8.208

**ÜLVİYYƏ ÇINGIZ QIZI ƏLIYEVA**
*Azərbaycan Universiteti. "Tərcümə və filologiya" kafedrasının dosenti*
*ulviyya_28@mail.ru*
*0000-0002-1569-280X*
*Orcid kod*

# ESTETİK KATEQORİYA QİSMİNDƏ SOSİAL SATİRANIN İNGİLİS ƏDƏBİYYATINDA TƏŞƏKKÜLÜ

**Açar sözlər:** satira, sosial satira, personaj, satiranın inkişafı, ingilis ədəbiyyatı
**Ключевые слова:** сатира, социальная сатира, характер, развитие сатиры, английская литература
**Keywords:** satire, social satire, character, development of satire, English literature

Estetik kateqoriya qismində ilk dəfə Şiller tərəfindən dərk edilmiş satira ingilis ədəbiyyatında orta əsrlərdə xüsusilə C. Çoserin "Kəntberri hekayələri" silsiləsinin yaranmasından sonra özünü açıq şəkildə büruzə verir. Təxminən Bokkaçço ilə eyni dövrdə , yəni XIV əsrdə yaşayıb-yaratmış ingilis şairi Ceffri Çoser satirik mövzu ilə bağlı konsepsiyasını ifadə etmişdir. Bokaçço kimi Çoser də insanların faciəsini əvvəllər onların cəmiyyətdə yüksək mövqe tutmaları, sonralar isə müəyyən səbəblərə görə bu mövqedən məhrum olmaları ilə bağlayırdı. O, özünün məşhur "Kentberri" hekayələrində satiradan istifadə edərək gerçəkliyin daxilinə varıb onun mahiyyətini üzə çıxarmaq məqsədini güdürdü. Tədqiqatçılar C. Çoseri ingilis ədəbiyyatında realizmin banisi hesab edirlər və onun yaradıcılığının bu xüsusiyyətini ingilis ədəbiyyatında satirik ənənələrin əsasını qoymaqla əlaqələndirirdilər. C. Çoserin yaradıcılığında gülüş özünü müxtəlif şəkildə büruzə verir: müəllif bəzən insanla yumor hissi ilə, sevgi hissi ilə zarafat edir, digər hallarda rişxəndlə onu ələ salır, bəzən də tənqid etdiyi tərəfi kəskin sarkazmın, öldürücü satiranın hədəfinə çevirir. Çoser dövrünün gerçəkliyinə bütün incəliklərinə qədər bələd idi. Bu ona həyat haqqında bütün həqiqəti açıb göstərməyə kömək edirdi. O, dövrünün insanlarının çatışmayan cəhətlərini təsvir edir və satirik vasitələrdən istifadə etməklə onları tərbiyə etməyə cəhd göstərirdi.

"Kenterberi hekayətləri"ndə C. Çoser dövrünün İngiltərəsinin geniş və parlaq mənzərəsini təsvir etmişdir. Buna o satiranın müxtəlif üsul və vasitələrindən ustalıqla istifadə etmək nəticəsində nail olmuşdur. C. Çoserin "Kenterberi hekayətləri"ndə əsasını qoyduğu bu tendensiya sonralar ingilis ədəbiyyatının bütün dövrlərində davam və inkişaf etdirilmişdir.

İntibah dövründə insan sözün əsl mənasında incəsənətin aparıcı obyektinə çevrildiyinə görə çox zaman iddia olunduğu kimi onu təkrar vəsf etmir, onu bütün dəyərlərin yeganə ölçüsü olmasını göstərməklə yanaşı həmçinin çatışmazlıqlarını və nöqsanlarını da üzə çıxarmağa cəhd olunurdu.

Əlbəttə ki, U. Şekspirin komediyalarında da bu gün üçün əhəmiyyət kəsb edən problemlər satirik vasitələr və üsullarla təcəssüm olunmurdu. Lakin paradoksal şəkildə ingilis ədəbiyyatında XX əsr gerçəkliyinin bədii təcəssümünü dahi dramaturqun yüksək İntibah əhval-ruhiyyəsini əks edən, optimizmə köklənmiş komediyaları deyil, onun yüksək faciələri uyğun gəlir və bu baxımdan müəllifin "Hamlet" və "Kral Lir" əsərləri həm Şekspirin yaşadığı dövr üçün, həm də XX əsrin gerçəkliyindən ötrü bədii söz sənətində faciəviliyin və satirik təsvir üçün geniş meydan açan absurdluğun görüş yeridir, üzvi vəhdətdə birləşməsidir. Bu əsərlərdə U. Şekspir, təkcə realist hissiyatı ilə deyil, həmçinin mütəfəkkir şüuru ilə öz dövrünün ən dərin ziddiyyətlərini dərk etməyə nail olmuşdur. [5,6]. Dünya ədəbiyyatının çoxəsrlik təcrübəsi sübuta yetirir ki, ziddiyyətlərin bədii təcəssümündə faciəviliyin və komikliyin çulğalaşması onun həqiqətini üzə çıxarmağın ən səmərəli yoludur.

Artıq XVI əsrin sonlarında sosial gerçəklikdə baş verən ziddiyyətlər XVII əsrin əvvəllərində dərinləşdilər və antoqonist xarakter kəsb etdilər. Bu dövrdə ingilis cəmiyyətinin inkişafına böyük təkan verən ölkənin mütərəqqi qüvvələri arasında ittifaq dağılmaq fazasına qədəm qoydu. 1597-ci ildən başlayaraq ölkənin ictimai-siyasi həyatı monarxiya ilə burjua parlamenti arasında ixtilaflarla müəyyən olunurdu: bir tərəfdən monarxiya, xüsusilə Yakov Stüartın tac-taxta yiyələnməsindən sonra bu ixtilaflar monarxiyanın feodal reaksiyasına geniş meydan açması ilə bağlı daha da dərinləşdilər. Digər tərəfdən "Hamlet" əsərinin meydana gəlməsini şərtləndirən konkret sosial-siyasi bu durum ümumbəşəri, müəyyən mənada fövqəlzaman xassə kəsb etmişdi. Məhz İngiltərə möhtəşəm ümumdünya – tarixi ziddiyyətlərin bir araya gəldiyi ərazi idi.

Ümumiyyətlə satira bu dövrdə gerçəkliyin sosial baxımdan böyük əhəmiyyət kəsb edən ziddiyyətlərini əks edir. Avropa bədii mədəniyyətində satira insanın gerçəkliyə estetik münasibətinin xüsusi tipi kimi çıxış edir. İlk dövrlərdə satirik tənqid "Mən" nəzər nöqtəsindən həyata keçirilirdi yəni şəxsi təəssürat çıxış mövqeyi rolunu oynayırdı. Dövlətçiliyin inkişafı ilə bağlı olaraq normativ düşüncə tərzi və dəyərləndirmə meyarları meydana gəldilər. Bu xeyir ilə şərin dəqiq şəkildə bir - birindən fərqləndirilməsinə əsaslanırdı.

Buna Roma satiriki Yuvenalın əsərləri misal ola bilərlər. İntibah dövründə insan təbiəti, onun bütün nəsnələrin ölçüsü olmaq iddiası satiranın hədəfinə çevrilir.

**Klasssisizm dövründə sosial satira**

Klasssisizm dövründə satira mücərrəd mənəvi və esteik normalara əsaslanırdı və klassisist satiranın obyekti konkret personaj idi. Bu personaj özündə xeyirxahlığın əksi olan mənfi xüsusiyyətləri cəmləşdirirdi.

Ingilis ədəbiyyatının təşəkkülündə və inkişafında önəmli rol oynamış satiranın intibah dövrü görkəmli ingilis şairi və dramuturqu Ben Consonun adı ilə bağlıdır. Ben Consonun "Vəziyyət dəyişmişdir" (1597), "Volpone" (1605), "Episin, yaxud Qaradinməz qadın" (1609), "Kimyagər" (1610), "Varfolomey yarmarkası" (1614) komediyalarında cəmiyyətdə baş alıb gedən eybəcərliklər, mənəvi əxlaqsızlıqlar tənqid olunur . (1.251) Onun satirik yaradıcılığı XVIII-XIX əsrlər ingilis ədəbiyyatına öz təsirini göstərmişdir. Məhz onun təsiri ilə Tekkereyin "Şöhrətpərəstlik Yarmarkası", Dikkensin "Ağır dövrdə" və "Körpə Доррит", E. Qaskellin "Meri Barton" "Şimal və Cənub" , Brontenin "Шерли" və s. əsərləri öz dövrlərinin aktual problemlərini , ictimai münaqişələri ilə ictimai həyatla əlaqədə məhz satirik üslubun köməyi ilə həll etməyə cəhd göstərmişlər.(2. 54) Bu baxımdan həmin sənətkarların ardıcıl və sistematik şəkildə qaldırdığı əsas problemlər ilk növbədə sosial və mənəvi-əxlaqi problemlərdir. Bu tipli aktual problemləri qaldıraraq bədii şəkildə həll etmək oxucuya çatdırmaq sənətkardan bir o qədər artıq istedad, məharət və bacarıq tələb edir.

İngilis ədəbiyyatında sosial satiranın inkişaf mərhələləri kifayət qədər zəngin və rəngarəngdir. Bu janr çox vaxt yumor və ya istehza ilə sosial tənqidi ifadə edir və çox vaxt sosial ədalətsizlikləri, mənəvi çürümələri, siyasi problemləri və ya insan təbiətindəki ziddiyyətləri hədəf alır.

**Maarifçilik dövründə sosial satira.** Maarifçilik dövründə dünyanın və insan təbiətinin qeyri-kamilliyi satiranın əsas hədəfi qismində çıxış edirdi. Alman romantizmi nəzəriyyəsinin görkəmli nümayəndələrindən biri Zolger göztərirdi ki, satira dünyanın eyni zamanda reallıq və ideya olmasını təsdiqləyir. Onun fikrincə ideya sona qədər reallıqda məhv olur və eyni zamanda reallığı öz səviyyəsinə qədər qaldırır. "incəsənətin mərkəzi ideyanı elə ideya vasitəsilə aradan qaldırılmasını biz bədii istehza adlandırırıq. İstehza incəsənətin mahiyyətini təşkil edir. Hegel və onun ardınca Kyerkeqor romantik istehzanı kəskin tənqid hədəfinə çevirdilər. Kyerkeqorun fikrincə romantiklərin istehzası Sokratın subyektivlik prinsipinin təhrifidir. Sokrat mövcud gerçəkliyi yeni, müsbət məqamın bərqərar olmaı üçün inkar edir, romantiklərin istehzası isə əksinə, reallığı subyektiv obrazla əvəz etməyə çalışır.

İngilis sosial satirasının ilk dövrləri Conatan Sviftin "Qulliverin Səyahətləri" və Daniel Defonun siyasi və sosial tənqidi ehtiva edən romanları kimi əsərlər tərəfindən formalaşdırılıb. Svift xüsusilə siyasi elitanı və ictimai quruluşu kəskin tənqid etməsi ilə tanınır. Conatan Sviftin əsərlərində sağlam düşüncə dövrün satirik təhlilinin ölçüsünə çevrilir. Bu yazıçının xüsusilə "Qulliverin səyahətləri" əsərində özünü büruzə verir. XVIII əsr ingilis romanının təşəkkülü ilə bağlı ədəbiyyatşünas

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 8, 2025
Səh. 208-214

P.Rocers yazır: “Roman yalnız yeni ədəbi hadisə deyildi...onu müəyyən ədəbi qarışdırılmanın nəticəsi kimi meydana gəlmiş janr hesab edirdilər. O epik poema,cəngavər romanı ilə qohum olmaq iddiasında idi. Lakin roman bununla kifayətlənmirdi, son dərəcə alçalırdı, jurnalistikadan, bioqrafiyadan, sərgüzəşt hekayələrindən, xalq inanclarından bəhrələnirdi. Onun rəngarəngliyi yeniliyindən və populyarlığından xəbər verirdi. [1.s.167]. Burada tədqiqatçı birbaşa pamfletin adını çəkməsə də, aydın məsələdir ki, jurnalistika deyəndə məhz XVIII əsrdə bəlkə ingilis söz sənətində bu ən geniş yayılmış janrı nəzərdə tuturdu: Həqiqətən də pamflet jurnalistika janrı kimi romanın təşəkkülündə xüsusilə onun tənqidi-satirik pafosunun formalaşmasında mühüm rol oynamışdır. Svift bu janrın böyük ustasıdır. Pamflet bir janr kimi satiraya, onun gerçəklikdə mövcud olan yamanlığı üzə çıxartmaq,onu dərk etmək və onu rişxənd hədəfinə çevirməyə köklənmişdir. Bütün dərin nihilizminə baxmayaraq C.Svift belə hesab etmirdi ki, yamanlıq bütün bəşər nəslinin islahedilməz xassəsidir: onun pamfletlərini diqqətlə oxuduqda məlum olur ki, heç bir insan dünyaya bəd niyyətlərlə gəlmir, cəmiyyətdə mövcud olan qayda-qanunlar onu bu yola sürükləyir. Məhz buna görə də C.Sviftin əsərlərində yamanlıq dəhşətli bir ictimai bəla kimi təqdim olunsa da, tarixən o konkretdir və onun ünvanını müəyyən etmək böyük çətinlik yaratmır. Bu cəhətdən artıq müəllifin 1696-1697-ci illərdə yazdığı “Kitabların savaşı” (The Battle of the Books) pamfletində öz əksini tapır.Pamflet yazıldığı dövr üçün aktuallıq kəsb edən ədəbi-fəlsəfi ixtilaf səciyyəli problemə həsr olunmuşdu. Lakin diqqətlə fikir verdikdə məlum olur ki, antik dövrün və yaxud müasir dövrün sənətkarlarının daha üstün olması ilə Fransada başlayan İngiltərədə davam edən “savaş” Svift üçün XVII əsrin sonunda ingilis gerçəkliyində mövcud olan ziddiyyətləri üzə çıxarmaq, ifşa etmək və satirik tənqid hədəfinə çevirmək daha böyük əhəmiyyət kəsb edirdi. Dövrün aktual hadisələrinə belə bir yanaşma prinsipi Sviftə imkan verirdi ki, satirasının hədəfi kimi həqiqətən mənəvi-əxlaqi və intellektual çatışmazlıqları olan ayrı-ayrı şəxsiyyətləri deyil, hadisələr kompleksini seçsin. Bu isə sənətkardan yetkin və dərin ümumiləşdir-mələr aparmağı tələb edirdi.

C. Sviftin gerçəkliyin mövcud durumundan narazılığı onun pamfletlərində cəmiyyətin ruhi-mənəvi həyatına satirik münasibətlərində özünü büruzə verirdi. Bu hər şeydən əvvəl onunla bağlı idi ki, C.Svift bir din xadimi kimi insanların ruhi həyatı üçün daşıdıqları məsuliyyətə barmaqarası baxmaqlarını görür və ifşa etməyə cəhd edirdi.Pamfletin müəllifi üçün qədimlərin və yenilərin mübahisəsi o dövrdə İngiltərədə ziyalıların ən nüfuzlu nümayəndələri sayılan alimlərin və yazıçıların intellektual baxımdan yetərsizliyinin təcəssümü idi.

Lakin müəllif bununla kifayətlənmir mənasız və məzmunsuz işlərlə məşğul olan bu say-seçmələrin timsalında Svift bütün ingilis cəmiyyətinin ruhi-mənəvi və intellektual həyatını şübhə altına alır. Tədqiqatçılar haqlı olaraq, poetik savaşın Yunanıstanda yerləşən, antik ənənələrə görə poetik ilhamın mənbəyi hesab olunan

Parnas dağından, ilhama meydan açmaq iqtidarında olmayan Sent-Cems kitabxanasına köçürülməsini məhz ingilis gerçəkliyinin, cəmiyyətin ruhi həyatının poeziyaya meydan açmaq əzmində olmadığını vurğuladığını nəzərə çarpdırdığını göstərirlər. [2 s. 78].

Pamfletdə tərəflərin heç biri digərinə qalib gələ bilmir, çünki C.Sviftin fikrincə qədim və müasir sənətkarları üz-üzə qoymağın özünün heç bir ağlabatan əsası yoxdur:hər dövrün sənətkarı öz oxucularının maraqlarından və estetik zövqlərindən çıxış edərək öz kitablarını yazırlar.Lakin müəllif sənətkarların virtual savaşını dəyərləndirməklə kifayətlənmir,"Kitabların savaşı" pamfletinin obraz strukturunun özünəməxsusluğu satirik vasitələrdən istifadə baxımından böyük maraq doğurur: burada Svift ümumiləşdirilmiş mücərrəd səciyyəli satirik obrazı bilərəkdən konkret-maddi detallarla zənginləşdirir. Bu sənətkara təsvir olunan obrazların anatomiyasına və fiziologiyasına aid olunur. C.Svift bu satirik vasitədən istifadə etməklə obrazlarının qrotesk xarakterini, onların mənfi keyfiyyətlərini vurğulayır.Müəllif bir növ mücərrəd obrazlarda–ideyalarda (Həyasızlıqda, kütlükdə və sairədə) təkzib etməyə cəhd göstərdiklərini maddiləşdirib konkretləşdirməklə oxucuda onlara qarşı ikrah hissi oyatmağa çalışır.

Nəticədə "Kitabların savaşı" pamfletində mücərrədliyin və maddiliyin birləşib üzvi vəhdət təşkil etməsi ümumiləşdirmənin konkretləşməsinə və əksinə obrazların emosional xarakteristikalarının konkretliyin hüdudlarını aşıb ümumiləşməsinə səbəb olur.

## Nəticə

XX əsrin yetmişinci illərində əxlaqi-mənəvi dəyərlər haqqında təsəvvürlər kəskin şəkildə dəyişdilər. Məhz bu dövrdə sözün əsl mənasında ingilis cəmiyyəti gizli şəkildə hökm sürən Viktoriya dövrünün yasaqlarından birdəfəlik imtina etdi. Bu, tam, mütləq azadlıq əldə etmək hissini, "istədiyini etmək" duyğusunu formalaşdırdı. Belə bir kəskin dönüş əsrlər boyu təşəkkül tapmış dəyərlərin tapdaq altına salınmasına onlardan qəti və birdəfəlik imtinaya gətirib çıxartdı. Belə bir durum ölkənin və cəmiyyətin təməlini sarsıdırdı: ölkə mənən məhv olmaq təhlükəsi ilə üz-üzə gəldi. Bu dövrdə istehlakçılara təqdim olunan "kütləvi cəmiyyət''in bütün cəbhə boyu mühüm, uzun əsrlər boyu təşəkkül tapmış mənəvi dəyərləri, məhv edib sıradan çıxartması "kontrmədəniyyət" deyilən hərəkatın yaradıcılarının kəskin etirazına səbəb oldu. Yalnız bir müddət keçəndən sonra məlum oldu ki, bu etirazın heç də ciddi sosial əsası yoxmuş və "kütləvi mədəniyyət" və "kontrmədəniyyət" tipoloji və genetik baxımından bir-birilə bağlı imişlər: "kütləvi mədəniyyət", "kontrmədəniyyət''in daxilində doğulmuş inkişaf etmiş və öz üsul və vasitələrini yaratmışdır.

Beləliklə qeyd etmək olar ki, sosial satiranın ənənəyə əsaslanması ingilis mədəniyyətinin inkişafının bütün mərhələlərində mühüm rol oynamışdır.

**İstifadə olunan ədəbiyyat siyahısı:**

1. Royers P. Grub Street. Studius is a subculture L., 1972, p. 324
2. Дубашинский И. А "Путешествия Гулливера" Джонатана Свифта, "Высшая школа", 1969 - 111 pages,
3. Михальская Н. Предисловие // Spark M. The Public Image. M., 1976.
4. Елистратова А. А. Английский роман эпохи Просвещения. - М, 1966. - С. 111.
5. Bergonzi, Bernard. The Myth of Modernism and Twentieth Century Literature.
6. Jonathan Swift and the Eighteenth-Century Book - Cambridge University Press, 2013 P 291
7. Свифт Д. Собрание сочинений в 3 т , т. 1, Сказка бочки; Путешествия Гулливера, М.,Терра , Книжний клуб, 2008,480с.
8. Thomas Hobbes: Moral and Political Philosophy https://www.iep.utm.edu/hobmoral Brighton, Sussex: Harvester Press, 1986.
9. Жантиева Д. Г. Английский роман XX века 1918-1939. М., 1965. С. 243-258.
10. Ивашева В. Теккерей - сатирик. М., 1958.

**Xülasə**

Bu məqalədə İngilis ədəbiyyatında sosial satiranın inkişaf mərhələləri nəzərdən keçirilir. Satira janrının xarakterik xüsusiyyətləri, tarixi inkişafı tədqiq olunur. İngilis sosial gerçəkliyinin satira janrının inkişafına təsiri araşdırılır. XIV əsrdə yaşamış ingilis yazıçısı Cefri Çoserin "Kenterberri hekayələri" satirik ənənələrin əsası hesab olunur. Ulyam Şekspirin"Hamlet" və "Kral Lir" əsərləri faciəvilik və satirik ənənələrin görüş yeridir. İngilis sosial satirasının ilk əlamətləri Conatan Svift və Daniel Defo yaradıcılığına aiddir

**ULVİYYA ƏLIYEVA**

**SUMMARY**

**THE EMERGENCE OF SOCIAL SATIRE IN ENGLISH LITERATURE AS AN AESTHETIC CATEGORY**

The article deals with the social satire, its development features of English literature. As a genre here is also reflected the development of satire and and its characteristic features. There is also mentioned the influence of the English social environment of the English society to the formation of the new stage of the development of satire in the article.The English writer Geoffrey Chauser, who lived in the 14 th century is considered the founder of satirical traditions with The "Canterbury Tales". William Shakespeare s "Hamlet" and "King Lear" represent the meeting point of tragedy and satire. The first features of English social satire are associated with the work of Jonathan Swift and Daniel Defo.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 208-214*

# РЕЗЮМЕ
# ВОЗНИКНОВЕНИЕ СОЦИАЛЬНОЙ САТИРЫ В АНГЛИЙСКОЙ ЛИТЕРАТУРЕ КАК ЭСТЕТИЧЕСКОЙ КАТЕГОРИИ

В статье рассматривается социальная сатира и его особенности развития в английском литературе. В качестве жанра здесь также отражено развитие сатиры и ее характерных черт. Также в статье упоминается влияние английской социальной среды английского общества на формирование нового этапа развития сатиры. Английский писатель Джеффри Чосер живший в XIV веке считается основоположником сатирических традиций со своим произведением Кентерберийские рассказы. Трагедия и сатира переплетаются в пьесах Уильяма Шекпира Гамлет и Король Лир. Первые признаки английской социальной сатиры связаны с творчеством Джонатана Свифта и Даниэля Дефо.

**Rəyçi: Prof.Abdullayeva Yeganə Atamoğlan qızı**